# Cəbrayıl Şəhəri Günü Böyük qayıdışın real təzahürü, dövlətimizin qüdrətinin, Azərbaycan Ordusunun qəhrəmanlığının parlaq təcəssümüdür

**"44 günlük Vətən müharibəsinin parlaq Zəfərə aparan hər bir günü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhərini işğaldan azad etdi. 27 il ərzində ermənilər tərəfindən tamamilə dağıdılmış Cəbrayıl əsgər və zabitlərimizin canı, qanı bahasına işğalçılardan təmizləndi".**



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov bildirib.

Şahin İsmayılov qeyd edib ki, Cəbrayılın təbii sərvətləri, habelə inkişaf etmiş üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıq kimi sahələri ilə məşhur olması rayonun iqtisadi və sosial inkişaf potensialını şərtləndirən əsas amillərdən olub. Lakin işğal dövründə rayonun bütün iqtisadi-sosial infrastrukturu məhv edilib, xəstəxanalar, təhsil və mədəniyyət obyektləri, yaşayış binaları, sənaye müəssisələri dağıdılıb. Ümumilikdə, işğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəyib.

Aprel döyüşlərinin müasir Azərbaycan tarixinin şanlı qələbələrindən olduğunu söyləyən komitə sədri bildirib ki, Lələtəpə yüksəkliyinin azad olunması, Cocuq Mərcanlı kəndinin yenidən qurulması Böyük qayıdışın rəmzinə çevrildi.

"Bu il beşinci ildönümünü qeyd etdiyimiz Vətən müharibəsi zamanı Cəbrayıl əməliyyatı böyük hərbi qəhrəmanlıq nümunəsidir. İllərdir tarixi torpaqlarımızda möhkəmlənən düşmən burada çoxsaylı istehkam xətləri qurmuşdu. Rəşadətli ordumuz yüksək peşəkarlıqla bu istehkamları yararaq Cəbrayıl şəhərin azad etdi. Bu, sonrakı əməliyyatların uğurla həyata keçirilməsi üçün strateji imkanlar yaratdı", - deyə Şahin İsmayılov vurğulayıb.

Cəbrayılın bu gün sürətlə yenidən qurulduğunu söyləyən komitə sədri qeyd edib ki, dövlətimizin başçısı azad olunmuş torpaqlarda həyata keçirilən nəhəng quruculuq işlərini diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidenti görülən işlərlə yerində tanış olur, müvafiq tapşırıqlarını verir, açılışlarda iştirak edir. Qısa zaman ərzində görülən işlərin nəticəsi olaraq artıq 50 mindən çox insan azad edilmiş torpaqlara geri qayıdıb.

Şahin İsmayılov bildirib ki, otuz üç yaşayış binasından ibarət Cəbrayıl şəhər kompleksində keçmiş məcburi köçkünlərin məşkunlaşması həyata keçirilib. Eyni zamanda Cəbrayıl ərazisində yerləşən "Araz Vadisi İqtisadi Zonası" regionun mühüm sənaye-logistika mərkəzinə çevrilməkdədir. Müasir yol-nəqliyyat infrastrukturunun tikintisi, digər layihələr Cəbrayıla qayıdışın strateji əsaslarını təşkil edir.

Böyük qayıdışın real təzahürünə çevrilən Cəbrayıl Şəhəri Günü həm də tarixi ədalətin bərpasının, qəhrəman Azərbaycan Ordusunun misilsiz igidliyinin və dövlətimizin qüdrətinin parlaq təcəssümüdür. Artıq cəbrayıllılar Cəbrayıl Şəhəri Gününü doğma torpaqlarında böyük qürurla qeyd edirlər", - deyə komitə sədri qeyd edib.

Azərbaycan.-2025.- 5 oktyabr (№ 210).- S.3.